# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna əlavə və dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası prezidentinin 2001-ci il 19 iyun tarixli, 510 nömrəli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu»nun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 6, maddə 408; Azərbaycan Respublikası prezidentinin 2004-cü il 6 may tarixli, 60 nömrəli fərmanı) 2-ci bəndində *«Maliyyə Tarif və Valyuta Nəzarəti Baş İdarəsi»* sözlərindən sonra *«Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsi»* sözləri əlavə edilsin və həmin bənddə *«Statistika və İnformasiya Texnologiyaları İdarəsi»* sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 30 iyun 2004-cü il.***

***№ 84***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (1 iyul 2004-cü il, № 150) ( «VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2004-cü il, № 6, maddə 441) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*